| | **Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.06.2011-cİ il tarixli, 95 nömrəli qərarı ilə təsdiq olunmuş ixtisas siyahıları üzrə ixtisaslar və ixtisaslaşmalar:** |
|---|---|
| 1 | **60213 Beynəlxalq münasibətlər**<br>**Ixtisaslaşmalar:**<br>Beynəlxalq münasibətlər və diplomatiya<br>Müasir dövrdə Yaxın və Orta Şərq ölkələrinin xarici siyasəti<br>Dünya siyasəti<br>Müasir danışıqlar təcrübəsi<br>Beynəlxalq mədəni əlaqələr tarixi və nəzəriyyəsi<br>Beynəlxalq münasibətlər tarixi və nəzəriyyəsi |
| | Beynəlxalq münasibətlər ixtisasının məqsəd və vəzifələrinə xarici dildə neytral səs informasiyasının və ritminin özünəməxsusluğunu, beynəlxalq münasibətlər sahəsi üçün səciyyəvi olan tələffüz üslubunun əsas xüsusiyyətlərini, ümumi və terminoloji səciyyəli 4000 tədris leksik minimumu, elmi üslubun əsas xüsusiyyətlərini, öyrənilən dil ölkələrinin mədəniyyəti və adət ənənələrini, nitq etiketi qaydalarını, siyasi xəritənin dəyişməsi ilə bağlı yeni yaranan gənc dövlətlərin qloballaşma və inteqrasiya proseslərinə qoşulması problemlərinin öyrənilməsi və araşdırılması daxildir. |
| 2 | **60301 Muzeyşünaslıq, arxiv və abidələrin qorunması**<br>**Ixtisaslaşmalar:**<br>Muzeyşünaslıq<br>Arxiv işi və arxivşünaslıq<br>Arxeoloji və tarixi memarlıq abidələrinin mühafizəsi |
| | Muzeyşünaslıq, arxiv və abidələrin qorunması ixtisasının məqsəd və vəzifələrinə dünya muzeyşünaslığının və muzeylərin tarixi əhəmiyyətini dərk etmək, muzeylərin pedaqoji, psixoloji, estetik prinsiplərinin və müasirdövrdə dünya muzeyşünaslığının aktual problemlərinin öyrənilməsi, muzey tarixinin həlledici məqamlarını, sənət əsərlərinin və tarixi mədəniyyət abidələrinin analitik təhlilə cəlb edilməsi daxildir. |
| 3 | **60302 Sənətşünaslıq**<br>**Ixtisaslaşmalar:**<br>Mədəniyyətin nəzəriyyəsi<br>Mədəniyyətin tarixi<br>Sosial kulturologiya<br>Azərbaycan mədəniyyətinin tarixi<br>Tətbiqi kulturologiya<br>İncəsənət əsərlərinin bərpası və ekspertizası<br>Təsviri incəsənətin tarixi və nəzəriyyəsi |
| | Sənətşünaslıq ixtisasının məqsəd və vəzifələrinə sənət əsərlərinin qiymətləndirilməsində keyfiyyət məsələsinə aparıcı məsələ kimi baxılması, semantik yanaşmanın istənilən əsərin tədqiq olunmasının vacibliyinin, tədris prosesində sənətşünaslığın formal-üslubi metodunun, mədəni-tarixi üsulunun araşdırılması, incəsənət əsərlərinin maddi-texniki vəziyyətini, əmlak statusunu, məzmun və formasını müəyyən etmək daxildir. |
| 4 | **60205 Kitabşünaslıq**<br>**Ixtisaslaşmalar:**<br>Nəşriyyat işi və redaktəetmə<br>Nəşr işinin metodologiyası<br>Nəşriyyatda bədii və texniki tərtibat işi<br>Redaktə işinin metodologiyası<br>Kitab çapının texnologiyası<br>Kitabın elmi və bədii redaktəsi<br>Kitabın texniki tərtibatı<br>Dünya və Azərbaycan kitabşünaslığı |
| | Kitabşünaslıq ixtisasının məqsəd və vəzifələrinə dünya informasiya ehtiyatları və şəbəkələrinin təsnifatı, xüsusiyyətlərini və inkişaf qanunauyğunluqlarını, ümumi və sahəvi komplekslərin daxili və xarici ehtiyatlarinin strukturunu, sosial-mədəni layihələşdirmənin nəzəriyyə və metodikasının əsaslarini, kompüter texnologiyasının təsnifatını, biblioqrafiyaşünaslıq və kitabşünaslığın tədqiqində elmi yanaşmaları öyrənir və araşdırır. |